# Azərbaycanın diplomatik uğurları qürur doğurur



***Dünya praktikası diplomatiyanı dövlət başçılarının, hökumətlərin və xarici əlaqələr üzrə xüsusi orqanların prinsipial fəaliyyəti, xarici siyasətin məqsəd və vəzifələrinin həyata keçirilməsi, dövlətin hüquq və maraqlarının xaricdə müdafiə olunması kimi səciyyələndirir. Napoleon hesab edirdi ki, diplomatiya təmtəraqlı libas geyinmiş siyasətdir. İngilis diplomatı E.Satou diplomatiyanı "müstəqil dövlətlər arasında rəsmi əlaqələrin həyata keçirilməsində ədəb və ağılın tətbiq edilməsi" kimi təqdim edir. Diplomatiyanın əsas predmeti, subyekti və obyekti dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətlərdir. Fərəhli haldır ki, bu gün Azərbaycan belə bir dövlət kimi tanınır.***

Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri də məhz 44 günlük zəfər yürüşü nəticəsində doğma Qarabağımızın 30 illik işğalına son qoyulması oldu. Xalqımızın ən ağrılı problemi olan Qarabağ münaqişəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Milli Ordumuzun gücü ilə başa çatdı. Şuşanın, Laçının, Kəlbəcərin ən uca zirvələrinə Azərbaycan bayrağı sancıldı. Beləcə, Prezident İlham Əliyevin özünün də dediyi kimi, o, ata vəsiyyətini, ulu öndər Heydər Əliyevin arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Bir qərinə idi ki, bu problem böyük dövlətlərin, qlobal güclərin geosiyasi maraqlarının toqquşduğu bir məsələyə çevrilmişdi. Mövcud geosiyasi prosesləri təhlil edib düzgün nəticə çıxaran Prezident İlham Əliyevin təmkinli və müdrik qərarları, yaratdığı diplomatik zəmin nəticəsində, nail olduğu dövlət-ordu-xalq birliyi sayəsində Azərbaycan Ordusu ay yarıma 30 illik problemi həll etdi. "Dəmir yumruq"la düşməni əzib məhv edən Ali Baş Komandan İlham Əliyev regional düzəndə yeni reallıq yaratdı. Bu reallıq ermənilərin 100 illik planlarını, erməniçilik idealogiyasını darmadağın etdi. Dahi lider, görkəmli dövlət xadimi Prezident İlham Əliyev tarixdə öz adını və izini qoydu.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq tədbirləri gerçəkləşdirilir. Dövlət başçısının vaxtaşırı Qarabağa səfərlər etməsi, görülən işləri şəxsi nəzarətində saxlaması və bu zaman mətbuata verdiyi açıqlamalarla dünyanın diqqətini erməni vandalizminin nəticələrinə, eyni zamanda, Azərbaycanın bərpaedici qüdrətinə yönəltməsi, həm də uğurlu siyasi-diplomatik gedişlər kimi əhəmiyyətlidir.

Uzun fasilədən sonra Şuşada "Xarıbülbül" festivalının keçirilməsi mahiyyətcə Azərbaycanın əsl mədəni dəyərlər ölkəsi olduğunu göstərən bir faktdır. Festivalda azsaylı xalqların nümayəndələrinə də səhnə verildi ki, bu da bir daha Azərbaycanın tolerant, multikultural ölkə olduğunu dünyaya göstərdi.

Ötən ay möhtərəm Prezidentimizin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələr bütün dünyanın diqqətini özünə çəkib. Bir vaxtlar öz ölkələrində ali vəzifələrdə çalışmış dialoq iştirakçılarının, eləcə də hazırda mötəbər beynəlxalq təsisatları təmsil edən siyasətçilərin suallarının dövlət başçımız tərəfindən tam səmimiyyətlə cavablandırılması gözəl əks-səda doğurub və zamanın çağırışları ilə bağlı Azərbaycanın mövqelərini öyrənərək, obyektiv dəyərləndirmək imkanı yaradıb.

Ölkəmizin regionda lokomotiv rol oynadığına hərtərəfli aydınlıq gətirən cənab İlham Əliyevin perspektiv planların dünya gündəliyinə uyğunlaşması ilə əlaqədar diplomatik məharətlə açıqladığı fikirlər aşkar şəkildə böyük rəğbət doğurub. Cənab İlham Əliyev mövzunun qlobal gündəlikdə duran məsələlərdən olduğunu vurğulayaraq, bunu aylar öncə Cənubi Qafqaz regionunda baş vermiş dəyişikliklərlə əlaqələndirib, yeni vəziyyətin yeni yanaşmalar tələb etdiyini elə əsaslandırıb ki, dialoq iştirakçıları heyranlıqlarını gizlədə bilməyiblər. Azərbaycan Prezidenti BMT-nin, Avropa İttifaqının, Qoşulmama Hərəkatının və digər beynəlxalq təşkilatların regionda dinc inkişafa güclü dəstək verə biləcəklərini, səmərəli beynəlxalq layihələr təqdim edərək icrasını reallaşdırmaq imkanında olduqlarını da nəzərə çatdırıb.

Dövlətimizin başçısının geniş erudisiyası, dünya tarixini və siyasətini dərindən bilməsi, müəyyən bir məsələ barədə fikirlərini yerinə düşən tarixi-coğrafi müqayisələrlə çatdırması onun diplomatik uğurlarını şərtləndirən amillərdir. Adi bir fakt: Prezident İlham Əliyev işğaldan azad olunmuş Azərbaycan ərazilərində bərpa və quruculuq işlərindən danışarkən qeyd edib ki, həmin ərazilər 4 Lüksemburq və 1 Livan boydadır və orada planlaşdırılan layihələr dünyada nadir hal olacaq. Hələ heç kim buna bənzər bir iş görməyib. Bu, "ağıllı şəhər", "ağıllı kənd", infrastrukturun düzgün qurulması üçün yaxşı model olacaq. Belə bir analitika dərhal beyinləri məşğul edir, ürəkləri duyğulandırır.

Həmin tədbirdə Azərbaycan Prezidentinin parlaq fikirləri, aydın və qətiyyətli mülahizələri Qarabağın tezliklə öz həqiqi sahiblərinin əli ilə cənnətməkan bir diyara çevriləcəyi və həm də ölkəmizin hər cür yaradıcı əməkdaşlığa hazır olduğu məramını bir daha sərgiləyib. Təsadüfi deyil ki, dövlət başçımızın həmin çıxışından sonra tədbirin aparıcısı, Latviya Respublikasının sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vilke-Freyberqa bu dialoqu heyrətamiz və tarixi bir dialoq adlandırıb. Xüsusilə də cənab İlham Əliyevin cavablarının açıq-aydınlığı, hamı üçün faydalı ola biləcək informasiya zənginliyi ilə seçildiyini dilə gətirib.

Azərbaycan Prezidentinin həsəd aparılacaq dərəcədə kreativ düşüncə tərzi, hər zaman vaxtında atdığı uğurlu diplomatik addımları gözəl nəticələrə gətirib çıxarır və real siyasətdə əməli fayda verir. Diskussiyalarda inamla söylədikləri isə dünyanın ən mühüm problemlərinin həllinə özəl yanaşma kimi yadda qalır, onun mövqeyini daha yaxşı anlamağa kömək edir. Xatırlayırıq ki, rus siyasətçilər dəfələrlə cənab İlham Əliyevin diplomatik uğurlarını həm də onun Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olması ilə əlaqələndiriblər. Bəli, Azərbaycan Prezidenti həmin institutda nəyinki əla qiymətlərlə oxuyub, həm də aspiranturanı bitirərək elmi dərəcə alıb və beş il müəllimlik edib. Bunlar öz yerində. Amma İlham Əliyevin uğurlarının özəyində daha çox onun məhz ulu öndər Heydər Əliyev siyasi-diplomatiya məktəbinin yetirməsi olması durur.

Danılmaz faktdır ki, zamanın fırtınalarında Azərbaycan adlı gəmini qətiyyətlə irəli aparan kapitanın – Prezident İlham Əliyevin sayəsində ölkəmiz regionda əsas söz sahibi olan bir ölkəyə çevrilib, şəriksiz avanqard mövqe qazanıb. Ümummilli lider Heydər Əliyev yolunun layiqli davamçısının gərgin zəhməti, yorulmaz səyləri, uzaqgörən xarici və daxili siyasəti Azərbaycan gəmisini azman dalğalardan, sualtı qaya təhlükələrindən məharətlə keçirərək layiqli istiqbalına qovuşdurur. Bu gün biz qalib dövlətin vətəndaşlarıyıq. Rəhbərimizin uğurlu siyasi-diplomatik fəaliyyəti, ordumuzun qəhrəmanlığı, xalqımızın birliyi ən ağlagəlməz nailiyyətləri bizim üçün əlçatan edib. Dövlət idarəetməsinin ən üstün modelləri Azərbaycanda tətbiq olunmaqdadır. Siyasi, sosial, iqtisadi, mədəni, hərbi sahələrdə radikal islahatlar yolu ilə böyük inkişafı təmin edən Prezident İlham Əliyev ölkəmizi beynəlxalq reytinq cədvəllərində ön sıralara çıxarıb. Dövlət rəhbəri sevimli xalqına güvənərək, ən çətin problemləri qətiyyətlə, səbrlə, müdrik qərarları ilə həll edə bilir.

Diplomatiyanın mühüm şərti vətəndaşların öz rəhbərinə inanması, taleyini düşünmədən ona etibar etməsidir. Əgər bir ölkənin rəhbəri mötəbər bir arenada cəsarətlə çıxış edib konseptual fikirlər irəli sürə, siyasi opponentlərinin qarşısında şərtlər qoya bilirsə, xalq bununla qürur duyur, öyünür. Bu gün biz həmin duyğuları yaşayan bir xalqıq. Gözəl bilirik ki, harada və hansı mövzuda çıxış etməsindən asılı olmayaraq, cənab İlham Əliyev yalnız öz xalqının, öz dövlətinin mənafeyini əsas götürür və ümumbəşəri dəyərlərə söykənir.

İlham Əliyevin başlıca üstünlüyü bundadır ki, həm Azərbaycana rəhbərlikdə, həm də beynəlxalq aləmdə fəal, nümunəvi siyasət aparır, dövlətlərarası münasibətlərin, beynəlxalq təşkilatın daha aktiv fəaliyyətinin təşəbbüskarı kimi çıxış edir. Beynəlxalq aləmdə ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatının sədri kimi narahat dünyanın ağrılı müşküllərinin həllində, İslam Əməkdaşlıq Təşkilatı vasitəsilə müsəlman ölkələrinin inteqrasiyasında, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının çalışmalarında, MDB çərçivəsində ünsiyyətin artmasında Prezident İlham Əliyevin əməli fəallığı çox zaman həlledici rol oynayır. Dövlətimizin başçısının uzaqgörən siyasəti sayəsində Azərbaycan beynəlxalq konfransların, simpoziumların, yarışların, qlobal fəaliyyətlərin mərkəzinə çevrilmişdir. Ölkəmizin tolerantlığı, multikulturalizmi, buradakı aktiv dialoq mühiti, sülhpərvərlik və birgəyaşayışın nümunəvi formaları ölkəmizin üstün keyfiyyətləri kimi səciyyələndirilir.

Artıq dünya miqyasında da rəsmi qaydada etiraf olunur ki, indi Azərbaycan borc alan ölkədən borc verən ölkəyə, qonşulardan dəstək uman dövlətdən köməyə ehtiyacı olanlara yardım edən dövlətə çevrilib. Elə ötən həftə Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusunda virtual şəkildə keçirilmiş 74-cü sessiyasına videoformatda qoşulan Prezident İlham Əliyev Azərbaycanda COVID-19 pandemiyasına qarşı mübarizənin aspektlərindən bəhs etmiş və dünyanın az inkişaf edən ölkələrinə beynəlxalq yardım zərurətini bir daha önə çəkmişdir. Qeyd etmişdir ki, biz kasıb ölkələrin öz əhalisini qorumaq imkanından məhrum olunmasını ictimai şəkildə qınayırıq: "Bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur. Bu xüsusda, biz inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırırıq".

...Biz bu yazını çapa hazırlayarkən Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu mətbuatda dərc edildi. Əsasən ermənipərəst mövqe nümayiş etdirən, münaqişəni törədənlə ona cəlb olunanı fərqləndirməyən Fransa Prezidenti məktubunda yumşaq şəkildə də olsa, yenə eyni mövqeyi sərgiləyib. Amma onun təbrikində müəyyən obyektiv yanaşmalar da yox deyil. Bu kontekstdən çıxış edərək deyə bilərik ki, Fransa Prezidentinin "Cari il yanvarın 14-də son telefon danışığımız zamanı ikitərəfli münasibətlərimizə yeni bir nəfəs vermək istədik. Məhz eyni açıqlıq və səmimi ruhda cari il yanvarın 25-də Bakıya səfər etmiş Dövlət katibi Jan-Batist Lömuanı qəbul etdiniz" – deyə xatırlatdığı məqamlar pozitiv ruhludur. O, məktubunda davamlı sülhə şərait yaratmaq üçün dərin işləri davam etdirmək zərurətini vurğulayır, cənab İlham Əliyevin Fransa ilə ikitərəfli münasibətlərin keyfiyyətinə şəxsi bağlılığını bildiyini etiraf edərək, bunu bölüşdüyünü söyləyir. Arzu edir ki, ölkələrimiz bir çox sahələrdə inkişaf potensialından istifadə edə bilsin. Makron öz məktubunu "Cənab Prezident, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm" sözləri ilə tamamlayıb. Göründüyü kimi, hətta ermənilərin qatı himayədarı kimi tanınan Fransa Prezidenti belə cənab İlham Əliyevin şəxsiyyətinə ehtiram bəslədiyini etiraf edir. Bu isə əslində, Azərbaycanın dünyada durmadan artan nüfuzunun, dövlət başçımızın diplomatik uğurlarının obyektiv təsdiqidir.

Doğru fikirdir ki, diplomatiya daim inkişaf edir, daha incə və transparent (aydın, şəffaf) olur. Onun metodları dəyişir, yeni, bəzən çox gözlənilməz formaları yaranır. Tam əminik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev öz fəaliyyətində, uğur qazandığı diplomatiya sahəsində zamanın "nəbz"ini düzgün tutmaqla ölkəmizi və xalqımızı yeni və daha böyük nailiyyətlərə çatdıracaq.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***